**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiya probleminin bədii ifadəsi

İxtisas: 5717.01 – Türk xalqları ədəbiyyatı

Elmi sahəsi: Filologiya

İddiaçı: **Ülvi Allahverdi oğlu Babayev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2021**

Dissertasiya Bakı Mühəndislik Universitetinin Xarici dil kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya üzrə elmlər doktoru, professor
**Akif Məmməd oğlu Hüseynov,**

Prof. Dr.
**Sıddıka Dilek Vural qızı Yalçın Çelik**

Rəsmi opponentlər: Filologiya üzrə elmlər doktoru, professor
**Əsgər Adil oğlu Rəsulov**

Filologiya üzrə elmlər doktoru, professor
**Jalə Fazil qızı Əliyeva**

Filologiya üzrə fəlsəfə doktoru,
**Mehman Ağasəlim oğlu Həsənli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən **FD 1.18–** Dissertasiya şurası

Dissertasiya şurasının sədri: akademik, filologiya elmləri doktoru, professor
**Gövhər Baxşəli qızı Baxşəliyeva**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Xanımzər Əli qızı Kərimova**

Elmi seminarın sədri: filologiya üzrə elmlər doktoru, professor
**Elman Hilal oğlu Quliyev**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünya nəsrinin tarixi qədim olsa da, yeni mərhələ Birinci Fransa inqilabından sonra (1789-1799) formalaşmağa başladı.[1] İnqilab öz növbəsində bütün dünyanın ictimai-siyasi, elmi-publisistik, ədəbi-mədəni inkişafına bu və ya digər dərəcədə təsir göstərdi. Türkiyə və Azərbaycan nəsri də müasir səpkidə inkişafa XIX əsrdə qoşuldu. Türk ədəbiyyatında Şəmsəddin Saminin "Tələt və Fitnatın eşqi" romanı, Azərbaycanda Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" povesti yeni tipli nəsrin ilk nümunələri kimi dəyərlidir. Daha sonra hər iki xalqın ədəbiyyatında klassik poeziya ənənəsi ilə yazmaq meyilləri yeni janr və formalara keçidlə əvəzləndi.

Bu ədəbi yeniliklər Türkiyədə "*Qərbi Avropa mədəniyyətinin, xüsusilə, Fransa və İngiltərə fəlsəfi və ədəbi-bədii estetikasının təsiri altında yaranan Tənzimat ədəbiyyatında formalaşmış, Divan ədəbiyyatında görülməyən nəsr janrları meydana çıxmış, olanlar isə yeni məzmun, forma, keyfiyyət qazanmışdır*".[2] Deməli, türk bədii nəsri də XIX əsrdən etibarən yeni ifadə və struktur estetikası ilə formalaşmağa başlamışdır.

Postmodernizm cərəyanının dünya ədəbiyyatında formalaşma prosesi təxminən, yarım əsrlik bir tarixə malikdir. İki dünya müharibəsi, faşizm, modernist meyillərdən doğan ümidsizlik, çıxılmazlıq sindromu mütləq həqiqətin inkarı olan postmodernizmə rəvac verdi. Bu təmayül və anlayış ilk dəfə Avropa və Amerika elmi-mədəni mühitində işlənir və daha sonra bədii əsərlərə də sirayət edir. İtalo Kalvino, Con Faulz, Umberto Eko kimi avropalı, Donald Bartelmi, Tomas Pinçon, Don Delillo, Uilyam Berrouz, Pol Oster kimi amerikalı yazıçılar postmodern nəsr əsərləri yazdılar. Postmodernizm Türkiyə nəsrində Azərbaycan ədəbiyyatından daha əvvəl təzahür edir. 1970-ci illərdə Oğuz Atayın "Tutunamayanlar" və "Təhlükəli oyunlar" romanlarında modernist və postmodernist xüsusiyyətlər əks olunur. Orxan Pamukun "Bəyaz qala", "Qara kitab" və digər əsərlərində də modernist və postmodernist təmayüllər

[1] Uçarol Rıfat. Siyasi Tarih (1789- 2014). İstanbul: Der Yayınları, 2015, s, 9-22
[2] Rəsulov Əsgər. Türk sənədli-bədii nəsri. Bakı: Elm, 2004, 428 s.

əks olunur. Bu proses 1990-cı illərdən etibarən isə müxtəlif müəlliflərin nəsr yaradıcılığında da davam edir.

Azərbaycan ədəbiyyatında isə 1980-ci illərdə İsa Hüseynovun “İdeal”, Çingiz Hüseynovun “Fətəli fəthi”, Yusif Səmədoğlunun “Qətl günü” romanlarında modernizm və postmodernizmə aid edilə biləcək müəyyən detallar əks olunur. Ancaq hər üç roman realist məzmundadır.

Hər iki ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı vəziyyət postmodernizmin təşəkkül tapmasına təsir göstərmişdir. Osmanlı İmperiyasından sonra Mustafa Kamal Atatürkün rəhbərliyi ilə yaradılan Türkiyə Respublikası modern və demokratik bir inkişaf prosesinə daxil oldu. Atatürkün qurduğu “Kənd İnstitutları” sosial-mədəni geriliyin aradan qaldırılmasına xidmət edirdi.[1] İkinci Dünya müharibəsində iştirak etməyən ölkə əsrin ikinci yarısında dünyada baş verən sənaye inqilabı, yüksək texnologiya çağı və istehlak cəmiyyətinə sürətlə qoşuldu. İnkişaf etməkdə olan ölkələr səviyyəsinə gələn Türkiyə Respublikasında XX əsrin 80-ci illərində “postmodern vəziyyət” yaranmağa başladı. Siyasi, iqtisadi və mədəni inkişaf ədəbiyyatda, xüsusilə, nəsrdə postmodernizmin inkişafına səbəb oldu.[2] Azərbaycanda isə Xalq Cümhuriyyətinin (1918-1920) qısamüddətli fəaliyyəti modern bir hadisə idi. Ancaq Sovet rejiminin yaranması və fəaliyyəti inkişafda olan dünya ilə aramıza müəyyən sərhədlər çəkdi. Sovet dövründə sosializm realizminin prinsipləri ədəbiyyatın sosial funksiyasını “sifariş ədəbiyyatı” istiqamətində formalaşdırdı.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan SSRİ-nin (KP MK-nın) birinci katibi seçilməsindən sonra ədəbiyyat adamlarına verilən dəyər və onların imperiyanın qırmızı terrorundan qorunması əlamətdar hadisə idi.[3] Müstəqillik dövründə ədəbiyyatda Heydər Əliyevin obrazı yaradılır.[4] Ümummilli lider Heydər Əliyevin “Əsrin

[1] Türk Tarihi İçinde Atatürk ve Cumhuriyet. Ankara: Genelkurmay Basımevi, 2009, s, 97-107

[2] Ecevit Yıldız. Türk Romanında Postmodernist Açılımlar. İstanbul: İletişim Yayınları, 2014, s, 83-95

[3] Novruzov Tərlan. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı: ADPU, 2007, 199 s.

[4] Əlişanoğlu Tehran. Azərbaycan, Azərbaycan. Bakı: Nurlan, 2005, s, 87-101

müqaviləsi”ni imzalaması və bütün mühüm tarixi hadisələrə siyasi qiymət verməsi mədəni bir inqilabdır. İyirmi yanvar faciəsi və Qarabağ savaşı (2020-ci ildə II Qarabağ savaşı, Vətən müharibəsi (27 sentyabr-10 noyabr) isə qələbə ilə nəticələnir. Ədəbiyyatın sosial funksiyası genişlənir, artıq qələbənin bədii inikası üçün münbit şərait yaranır), keçid dövrünün ictimai-mənəvi problemlərinə baxmayaraq, ölkə yeni bir inkişaf səhifəsi açdı. Heydər Əliyevdən (1993-2003) sonra onun siyasi kursunu davam etdirən prezident İlham Əliyev isə ənənəni davam etdirməklə yanaşı, siyasi, iqtisadi və mədəni həyatda yeni bir inkişaf dinamikasına start verir. [1] Daha sonra keçid dövründən çıxış və əhalinin rifah səviyyəsinin yüksəlməsi postmodern xarakter daşıyır. Prezident İlham Əliyevin 2004-cü ildə latın qrafikası ilə bağlı kütləvi nəşrlərə başlanması ilə bağlı sərəncam verməsi yeni əsrin ən inqilabi və ən mədəni hadisələrindəndir. *“Müstəqil Azərbaycan Respublikasında həyatın müxtəlif sahələrində aparılan islahatlar içərisində latın qrafikalı Azərbaycan əlifbasının bərpa edilməsi böyük tarixi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli və “Azərbaycan əlifbası və Azərbaycan Dili Gününün qeyd edilməsi haqqında” 9 avqust 2001-ci il tarixli fərmanları ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olmuş və latın qrafikalı Azərbaycan əlifbasına keçidi bütövlükdə təmin etmişdir. Latın qrafikalı Azərbaycan əlifbası artıq həyatımızın bütün sahələrində tam yerini tutmuşdur. Bununla yanaşı, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşr olunması günün ən vacib məsələlərindən biri olaraq qalır*”. [2] Ədəbiyyatda da postmodernist meyillər yaranır. Postmodernizm aşkar bir təmayül kimi Azərbaycan nəsrinə müstəqillik illərində gəlir. Xüsusilə, Kamal Abdullanın “Yarımçıq əlyazma” romanında postmodernizmə xas

---

[1] Prezident İlham Əliyev və mədəniyyət 2008-2013. Tərtib edənlər: L. Məmmədova, M. Əhmədov, Ə. Eyvazov. Bakı: Şərq-Qərb, 2013, 623 s.

[2] Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunan kitabların biblioqrafik təsviri (II hissə) /red. G.Baxşəliyeva, burax. məsul: K.Tahirov. Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2009, s, 4

keyfiyyətlər daha bariz və dolğun şəkildə əks olunur və başqa müəlliflərin yaradıcılığında davam edir.

Mövzunun aktuallığı bundan ibarətdir ki, Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiya probleminin bədii ifadəsi postmodernist və metamodernist epoxada yaşayan oxucular və elmi-mədəni mühit üçün də aparıcı rol oynayır. Xüsusən, sosial funksiyanın tərkib hissəsi olan oyun estetikası və əyləncəlilik yönlərinə daha çox diqqət yetirilir. Çünki oyun estetikası və əyləncəlilik postmodernizmin aparıcı xüsusiyyətləridir. Mövzu bir neçə xüsusiyyətinə görə aktualdır:

- Türkiyə və Azərbaycan postmodernist nəsri müqayisəli və yeni ədəbi təhlil prinsiplərinə cavab verir. Yəni istehlak cəmiyyətinin ədəbi-mədəni görüşlərinə uyğundur;
- İki qardaş xalqın ədəbiyyatında baş verən yeni proseslər və onun bədii ifadəsi həm Türkiyə, həm də Azərbaycan elm və ədəbiyyat ictimaiyyəti üçün faydalı qaynaqdır;
- Sosial funksiyanın modernist və postmodernist konsepsiyası yüksək texnologiya dövründə aktualdır. Çünki ədəbiyyat yüksək texnologiya, internet resursları, sosial şəbəkələr və vizual sənətlərlə rəqabət aparmaqdadır. Əks halda, öz mövcudluğunu qoruyub saxlaması çətinləşir. Postmodernist nəsrin sosial funksiyasının yüksək səviyyədə bədii ifadəsi hal-hazırda istehlak cəmiyyətində yaşayan ədəbiyyat oxucularında ədəbi nümunələrə qarşı maraq oyatması ilə birbaşa bağlıdır;
- Türkiyə və Azərbaycan postmodernist nəsrində mətnlə oxucu arasında olan əlaqənin və maraq dairəsinin öyrənilməsi baxımından da zəruridir;
- Türk ədəbiyyatının Azərbaycanda, Azərbaycan ədəbiyyatının Türkiyədə tanıdılması və mənimsənilməsi ümdə və aktualdır. Mövzu bu baxımdan Türkiyə və Azərbaycan ədəbiyyatşünaslığı üçün zəruridir;
- Türkiyə və Azərbaycan nasirlərinin postmodernist əsərlərinin dünyada baş verən nəzəri-praktiki, ədəbi-estetik təmayüllərlə paralel şəkildə öyrənilməsi əhəmiyyətlidir;
- Orxan Pamuk, İhsan Oqtay Anar, Həsən Əli Topdaş, Kamal Abdulla, Həmid Herisçi, Mübariz Örən və başqalarının postmodern

əsərləri sosial funksiyanın yeni, aparıcı ədəbi-estetik tələblərinə cavab verir.

Dissertasiyanın *obyektini,* ilk növbədə, Azərbaycan və Türkiyə postmodernist nəsrindən seçilmiş nümunələr (Orxan Pamukun "Bəyaz qala", "Qara kitab", "Mənim adım Qırmızı", "Beynimdə qəribəlik", Kamal Abdullanın "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox", "Sirlərin sərgüzəşti", Həsən Əli Topdaşın "Həba", "Sonsuzluğa nöqtə", "Min hüznlü həzz", Həmid Herisçinin "Nekroloq", "Solaxay", İhsan Oqtay Anarın "Əfrasiyabın hekayələri", "Dumanlı qitələr atlası", Anarın "Ağ qoç, qara qoç", "Göz muncuğu", Mətin Kaçanın "Fındıq səkkiz", "Ağır roman", Elçinin "Baş", Mübariz Örənin "Ağ buludlar" əsərləri və s.) təşkil edir. Ancaq tədqiqat yalnız bununla məhdudlaşmır. Çünki Türkiyə və Azərbaycan postmodernist nəsri geniş anlayışdır. Hər iki xalqın postmodernist nəsrinə onlarla mətn daxildir. Bu ədəbi nümunələr müxtəlif məzmun və keyfiyyətdədir. Postmodern nəsrin poetik xüsusiyyətləri müxtəlif səpkidə və keyfiyyətdə təzahür etmişdir. Ancaq Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiyanın bədii ifadəsi daha dolğun olan nümunələrin təhlil və tədqiqinə üstünlük verilmişdir.

Dissertasiyanın *predmetinə* isə sosial funksiyanın ədəbi-nəzəri konsepsiyasının müxtəlif cəhətləri, ənənəvi, modernist və postmodernist kontekstlər daxildir. Eyni zamanda, sosial funksiyanın postmodernist əsasları olan dekonstruksiya, intertekstuallıq və ehtimallar estetikası kimi məsələlərin öyrənilməsi təşkil edir.

"Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiyanın bədii ifadəsi" problemi nə qədər konkret mövzu olsa da, bir o qədər də postmodernist nəsrin əsas mövzuları ilə sıx əlaqədədir. Mövzu Azərbaycan ədəbiyyatşünaslığında sistemli şəkildə ilk dəfə işlənmişdir. Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiyanın bədii ifadəsi müqayisəli şəkildə olduğu üçün qardaş xalqın ədəbiyyatşünaslığına da nəzər yetirmək zəruridir. Türkiyədə mövzu ilə bağlı qismən də olsa, tədqiqatlar mövcuddur. Lakin sosial funksiyanın oyun estetikası, əyləncəlilik və poststruktural xüsusiyyətləri və onların bədii ifadəsi ilk dəfə dissertasiyada sistemli şəkildə öz əksini tapmışdır. Xüsusən, Oğuz Atay, Orxan Pamuk,

İhsan Oqtay Anar, Həsən Əli Topdaş, Muratxan Munqan kimi postmodernist nasirlərin əsərlərində sosial funksiyanın bədii ifadəsinin elmi qoyuluşu və tədqiqi yenidir.

*Mövzunun öyrənilmə dərəcəsinə* gəldikdə isə "Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiya probleminin bədii ifadəsi" mövzusu Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə elmi tədqiqatın predmeti olmuşdur. Lakin Azərbaycanda Salidə Şərifovanın "Çağdaş Azərbaycan postmodern romanı" monoqrafiyası postmodernist nəsr haqqında əsaslı təsəvvür oyadan tədqiqat işidir. Alim bu monoqrafiyada postmodern Azərbaycan romanlarını tədqiqata cəlb edir. Postmodernizmin nəzəri əsasları Azərbaycan romanlarının təhlilində praktiki əhəmiyyət daşıyır. Nərmin Kamal isə "Umberto Eko və postmodernizm fəlsəfəsi" kitabında postmodernizmin fəlsəfi və estetik cəhətlərini araşdırır.[1] Tədqiqatçı Lalə Həsənova "Postmodern roman" məqaləsində Anar, Kamal Abdulla, İlqar Fəhmi, Şərif Ağayar, Aqşin Yenisey, Nərmin Kamal və Kəramət Böyükçölün romanlarına ümumi şəkildə nəzər salır.[2] Minəxanım Gözəlova [3], Arzu Məmmədxanlı [4], Türkanə Əliyeva [5] və Afaq Əsədovanın [6] tədqiqatlarında postmodern türk nəsri tədqiq edilmişdir. Xüsusilə, Orxan Pamuk, Əlif Şəfəq və İskəndər Palanın romanları bu tədqiqatların predmeti olmuşdur. Bu tədqiqatçılar daha çox türk postmodernist nəsrində ənənəvi və modern təhkiyə metodlarını, ifadə estetikasını Şərq-Qərb müstəvisində araşdırmışlar. Azərbaycanda aparılan elmi tədqiqatlar da göstərir ki, "Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiya probleminin

---

[1] Kamal Nərmin. Umberto Eko və postmodernizm fəlsəfəsi. Bakı: Qanun, 2012, 204 s.

[2] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2-ci cild, məsul red. T. Əlişanoğlu; elmi red. İ. Həbibbəyli. Bakı: Elm və təhsil, 2016, 233-239 s.

[3] Gözəlova Minəxanım. Postmodernizm ədəbiyyatının təmsilçisi Orxan Pamuk yaradıcılığında Şərq və Qərb. Bakı: Mütərcim, 2008, 132 s.

[4] Məmmədxanlı Arzu. Orxan Pamukun yaradıcılığı. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş disser. avtoref. Bakı, 2018, 26 s.

[5] Əliyeva Türkan. Türk romanında ənənəvi Şərq və modern Qərb təhkiyəsinin sinkretizmi (Əlif Şəfəq və İskəndər Palanın yaradıcılığı əsasında). Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş disser. avtoref. AMEA, akad. Z. M. Bünyadov ad. Şərqşünaslıq İn-tu. Bakı, 2108, 30 s.

[6] Əsədova Afaq. Türk postmodernizmdə roman. 525-ci qəzet. 2015. 18 iyun. səh: 7.

bədii ifadəsi" dissertasiyasında hər iki xalqın postmodernist nəsri və sosial funksiya anlayışı ilk dəfə işlənmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.**

Dissertasiya işinin qarşısında duran əsas məqsəd Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiyanın bədii ifadəsinin öyrənilməsidir. Bu məqsəd aşağıdakı vəzifələrin həyata keçirilməsini nəzərdə tutur:

- Türkiyə və Azərbaycan nəsrində sosial funksiya probleminin ədəbi-nəzəri konsepsiyasının dünya ədəbiyyatı ilə müqayisəli şəkildə ənənəvi, modernist və postmodernist kontekstlər əsasında öyrənilməsini;
- Türkiyə və Azərbaycan nəsrində sosial funksiyanın hipertekstuallıq və intermediallıq kontekstində tədqiqata cəlb edilməsini;
- Sosial funksiyanın postmodernist ədəbi-nəzəri xüsusiyyətlərinin təhlilini;
- Sosial funksiyanın bədii-kommunikativ və poetik mətn modelinin araşdırılmasını;
- Sosial funksiyanın diaxron ədəbi-bədii düşüncə kontekstində şərh edilməsini;
- Türkiyə və Azərbaycan nəsrində oyun estetikasının Umberto Ekonun empirik oxucu və açıq mətn tezisi əsasında təhlil edilməsini;
- Türkiyə və Azərbaycan postmodern nəsrində sosial funksiyanın dekonstruksiya və mətnlərarası əlaqə və s. baxımından tədqiqi məsələlərini.

**Tədqiqatın metodları.** Tədqiqat, əsas etibarilə, bədii mətnlərin postmodernist təhlil prinsipləri ilə həyata keçirilmişdir. Belə ki, postmodernist bədii mətnin qurulmasının özünəməxsus poetexnologiyası var. Heç şübhəsiz ki, postmodernist bədii mətnin təhlili özünə münasibətdə öz poetik təhlil prinsipləri və terminoloji aparatını tələb edir. Lakin postmodernist üslubda yazılan mətn bütün hallarda milli ədəbiyyatın müəyyən bir layını təşkil etməklə qeyri-postmodernist mətnlərlə bütöv sistem yaradır.

Dissertasiya, ümumiyyətlə, tarixi-müqayisəli metodla yazılmışdır. Çünki problem, ilk növbədə, tarixi xarakterlidir.

Postmodernizm yalnız ədəbi cərəyan deyil, eyni zamanda, dövrün, zamanın ruhi vəziyyətidir. Türkiyə və Azərbaycan ədəbiyyatında postmodernist nəsrdə sosial funksiyanın bədii ifadəsi müəyyən bir tarixi mərhələni əhatə edir. Bu hal da, öz növbəsində, məsələni bütövlükdə müqayisəli-tarixi aspektdə öyrənmək deməkdir.

Mövzunun nəzəri-metodoloji bazasını, ilk növbədə, Türkiyə və Azərbaycan ədəbiyyatşünaslarının araşdırmaları təşkil edir. Belə ki, türk ədəbiyyatşünaslığında Fuad Köprülü, Agah Sırrı Levend, Hüseyn Nihal Atsız, Əhməd Kabaklı, Əhməd Həmdi Tanpınar, Berna Moran və başqa alimlərin nəzəri-metodoloji təhlil və tədqiq prinsipləri əsas götürülmüşdür. Həmçinin postmodernist türk nəsrinin tədqiqatını aparan çağdaş türk ədəbi tənqidçi və alimlərindən Yıldız Ecevit, Semih Gümüş, Jalə Parla, Vedi Aşkaroğlu, Kubilay Aktulum, Dilək Yalçın Çelik və başqalarının yeni tipli nəzəri-metodoloji yanaşma tərzi nəzərə alınmışdır.

Azərbaycan ədəbiyyatşünaslığında Mehdi Hüseyn [1], Mir Cəlal Paşayev [2], Məmməd Cəfər Cəfərov [3], Asif Əfəndiyev [4], Yaşar Qarayev [5], Aqşin Babayev[6], Tofiq Məlikli [7], Aydın Abıyev [8], Pənah Xəlilov [9], Akif Hüseynov [1], Elçin Əfəndiyev [2], Aydın

[1] Hüseyn Mehdi. Seçilmiş əsərləri. III cild. Bakı: Avrasiya press, 2005, 312 s.
[2] Paşayev Mir Cəlal. XX əsr Azərbaycan ədəbiyyatı: Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş 4-cü nəşri. Bakı: Elm və təhsil, 2018, 650 s.
[3] Cəfərov Məmməd Cəfər. Ədəbi düşüncələr. Bakı: Azərnəşr, 1958, 200 s.
[4] Əfəndiyev Asif. Şübhədən inama. Bakı: Vətənoğlu NP MMC, 2014, 55 s.
[5] Qarayev Yaşar. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı: Elm, 2002, 740 s.
[6] Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunan kitabların biblioqrafik təsviri [II hissə] /red. G.Baxşəliyeva, burax. məsul: K.Tahirov. Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2009, 102 s.
Babayev Aqsin. Nazım ve Azerbaycan. Çevirmen: Aslan Kavlak. İzmir: Zeus Kitabevi, 2012, 244 s.
[7] Məlikli Tofiq. Türkoloji problemlər. Bakı: Azərnəşr, 2008, 180 s.
Меликли Т. Сочинения 1. История литературы Турции. Баку: Элм ве техсил, 2016, 545 с.
[8] Aydın Abi Aydın. Türkiyə ədəbiyyatı tarixi. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2007, 280 s.
Aydın Abi Aydın. Türkiyə ədəbiyyatı tarixi. Bakı: "Təknur" nəşriyyatı, 2010, 448 s.
[9] Xəlilov Pənah. Türk xalqlarının və Şərqi slavyanların ədəbiyyatı. Bakı: Maarif, 1994, 429 səh.

Məmmədov [3], Gövhər Baxşəliyeva [4], İsa Həbibbəyl [5], Yaşar Qasımbəyli [6], Əsgər Rəsulov [7], Şirindil Alışanlı [8], Elman Quliyev [9], Nizami Cəfərov [10], Nizami Tağısoy [11], Rüstəm Kamal[12], Muxtar İmanov [13], Kamran Əliyev [14], Rəhim Əliyev [15], Bədirxan Əhmədov [16], Füzuli Bayat [17], Himalay Qasımov [18], Şükufə

---

[1] Hüseynov Akif. Həyat və sənət həqiqəti. Bakı: "TS", 2001, 204 s.
Hüseynov Akif. Nəsr və Zaman. Bakı: Yazıçı, 1980, 185 s

[2] Əfəndiyev Elçin. Azərbaycan ədəbi tənqdinin və ədəbi prosesinin problemləri. Bakı: Çinar çap, 2003, 302 s.

[3] Məmmədov Aydın. Sözümüz eşidilənədək. Bakı: Yazıçı, 1988. 244 s.

[4] Baxşəliyeva Gövhər. Məqalələr, məruzələr, müsahibələr... 2 clddə. Bakı: Bakı Çap Evi, 2011, 1c – 436 s.
Baxşəliyeva Gövhər. Məqalələr, məruzələr, müsahibələr... 2 cilddə. Bakı: Bakı Çap Evi, 2011, 2c – 512 s.

[5] Həbibbəyli İsa. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 689 s.

[6] Qasımbəyli Yaşar. Milli oyanış və özünəqayıdış lirikası. Bakı: Elm və təhsil, 2012, 449 s.

[7] Rəsulov Əsgər. Türk sənədli-bədii nəsri. Bakı: "Elm", 2004, 428 s.

[8] Alışanlı Şirindil. Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi. Bakı: Elm, 2013, 400 s.

[9] Quliyev Elman. Türk xalqları ədəbiyyatı. Bakı: Elm və təhsil, 2017, 631 s.

[10] Cəfərov Nizami. Elçin: Yazıçının yaradıcılıq yolu. Bakı: Zərdabi LTD. MMC, 2017, 280 s.
Cəfərov Nizami. Qədim türk ədəbiyyatı. Bakı: AzAtaM, 2004, 322 s.
Cəfərov Nizami. Türk xalqları ədəbiyyatı. 4 cilddə, I c., Bakı: Çaşıoğlu, AzAtaM, 2006, 320 s.

[11] Tağısoy Nizami. Elçinin «Baş» romanı struktur-funksional təhlil müstəvisində. Bakı, «Təhsil», 2017, 272 s.
Tağısoy Nizami. Etnos və epos: keçmişdən bugünə. Bakı, 2010, 372 s.

[12] Kamal Rüstəm. Kamal Abdulla: Yazıdan mifə. Bakı: Mütərcim, 2011, 116 s.

[13] Kazımoğlu (İmanov) Muxtar. Epos. Nəsr. Problemlər. Bakı: Elm və təhsil, 2012, 164 s.

[14] Əliyev Kamran. Açıq kitab – "Dədə Qorqud". Bakı: Elm və təhsil, 2015, 116 s.

[15] Əliyev Rəhim. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 2008, 360 s.

[16] Əhmədov Bədirxan. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər. Bakı: Elm və təhsil, 2015, 552 s.

[17] Bayat Füzuli. Türk təkkə (təsəvvüf) ədəbiyyatı. Bakı: Elm və təhsil, 2011, 440 s.
Bayat Fuzuli. Türk Mitolojik Sistemi. Kutsal Dişi – Mitolojik Ana, Umay Paradigmasında İlkel Mitolojik Kategoriler – İyeler ve Demonoloji. Cilt: 2, 4. Basım, İstanbul: Ötüken, 2018, 368 s.
Bayat Fuzuli. Türk Mitolojik Sistemi. Ontolojik ve Epistemolojik Bağlamda Türk Mitolojisi. Cilt: 1, 3. Basım, İstanbul: Ötüken, 2015, 380 s.

[18] Ənvəroğlu (Qasımov) Himalay. Bakı: "Nurlan", 2008, 335 s.

Qədimova[1], Jalə Əliyeva [2], Azər Turan [3], Sədaqət Qasımlı [4], Barat Osmanova [5], Rəşid Quliyev [6], Ramazan Əhmədov[7], Səriyyə Gündoğdu[8], Eşqanə Babayeva [9], Lalə Qasımova [10], Şəfa Hacıyev [11], Xuraman Hümmətov[12], Rüstəm Hüseynov [13], Aydan Xəndan [14], Elmira Məmmədova [15], Həyat Məmmədova [16], Nurlana Mustafayeva [17], Vəli Osmanlı [18] və başqalarının nəzəri-metodoloji görüşü baza

---

[1] Qədimova Şükufə. Klassik türk poeziyasının qaynaqları. Bakı: Elm və təhsil, 2015, 182 s.
Qədimova Şükufə. Türk divan poeziyası, qaynaqları və təşəkkülü. Bakı: Elm və təhsil, 2014, 184 s.

[2] Əliyeva Jalə. Türk nəsri Azərbaycan elmi interpretasiyasında. Ədəbiyyat məcmuəsi (Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri). C. XXI. Bakı, 2008, səh: 181-184.

[3] Turan Azər. XX əsr - fəryadın metafizikası. Bakı: Elm və təhsil, 2017, 424 s.

[4] Qasımlı Sədaqət. Haldun Tanerin bədii nəsri. Bakı: Bilik "İrşad" mərkəzi, 1994, 124 s.
Qasımlı Sədaqət. Türk ədəbiyyatında yeni hekayəçilik. Bakı: AFPoliqrAF, 2019, 267 s.
Osmanova Barat., Qasımlı Sədaqət. 1920-ci illər Azərbaycan mətbuatında Türkiyə ədəbiyyatının tədqiqinə dair materiallar. Bakı: Nurlan, 2004, 308 s.

[5] Osmanova Barat., Qasımlı Sədaqət. 1920-ci illər Azərbaycan mətbuatında Türkiyə ədəbiyyatının tədqiqinə dair materiallar. Bakı:Nurlan, 2004, 308 s.

[6] Təhməzoğlu (Quliyev) Rəşid. Nazim Hikmət yaradıcılığında Şərq. Bakı: Əli nəşriyyat evi, 2008, 152 s.

[7] Ахмедов Рамазан С. Литературные процессы в новой турецкой литературе. Баку: Нафта-Пресс, 2002, 206 с.

[8] Gündoğdu Səriyyə. Mehmet Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü. Bakı: R.M. Kompani, 2012, 228 s.

[9] Babayeva Eşqanə. Nəcib Fazil Qısakürəyin yaradıcılıq yolu. Bakı: Elm və təhsil, 2013, 195 s.

[10] Qasımova Lalə. XX əsrin II yarısından sonra türk hekayəçiliyində ənənə və navatorluq (Mustafa Kutlunun yaradıcılığı əsasında) :Fil.üzrə.fəl.dok... dis. avtoref. Bakı, 2014, 26 s.

[11] Hacıyeva Şəfa. Atatürk dövrü türk nəsri. Bakı: Bakı Dövlət Universitet nəşriyyatı, 2013, 128 s.

[12] Hümmətova Xuraman. Yunus Əmrə. Bakı: Elm və təhsil, 2012, 240 s.

[13] Hüseynov Rüstəm. Namiq Kamal. Bakı: Yazıçı, 1990, 183 s.

[14] Xəndan Aydan. Yəhya Kamal Bəyatlı yaradıcılığının sənətkarlıq xüsusiyyətləri. Bakı: Nurlan, 2002, 148 s.

[15] Məmmədova Elmira. Osman Türkayın poetik irsi. Bakı: Elm, 2010, 256 s.

[16] Məmmədova Həyat. Yaşar Kamal yaradıcılığında folklor motivləri: Fil.üzrə. fəls. dok. dis. avtoref. Bakı, 2010, 29 s.

[17] Mustafayeva Nurlana. Səbahəddin Əli nəsrinin poetikası.Bakı:Mütərcim, 2017,192 s.

[18] Osmanlı Vəli. Qədim Türk ədəbiyyatı ( VI- X əsrlər). Bakı: Sabah, 2008, 244 s.

rolunu oynayır. Digər tərəfdən müstəqillik illəri Azərbaycan nəsri, yeni ədəbi təmayüllər və postmodernist ədəbiyyat haqqında bir çox dəyərli tədqiqatları olan Qorxmaz Quliyev [1], Kamal Abdullayev [2], Tehran Əlişanoğlu [3], Təyyar Salamoğlu [4], Cavanşir Yusifli [5], Salidə Şərifova [6], İradə Musayeva [7], Elnarə Akimova [8], Afaq Əsədova [9], Dilbər Zeynalov [10], Maral Yaqubova [11], Qismət Rüstəmov [12], Araz

---

[1] Quliyev Qorxmaz. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları, Bakı: 2012, 344 s.
[2] Abdulla, K. Düma ilə Coys arasında. – Bakı: Mütərcim, – 2016, – 188 s.
[3] Əlişanoğlu Tehran. XX əsr Azərbaycan nəsrinin poetikası. Bakı: Elm, 2006, 312 s.
Əlişanoğlu Tehran. Milli nəsrdə Azərbaycan obrazı: tarix və müasirlik konetkstində. Bakı: Elm və Təhsil, 2017, 616 s.
Əlişanoğlu Tehran. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı. Bakı: Qanun, 2013, 216 s.
Əlişanoğlu Tehran. Müstəqillik körpüsünü keçənlər. Bakı: Elm və Təhsil, 2015, 452 s.
[4] Salamoğlu Təyyar [Cavadov]. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: BQU, 2008, 544 s.
[5] Yusifli Cavanşir. Sonsuzluğun fəzası: Xalq yazıçısı Anarın "Göz muncuğu" əsəri barədə verilən sualları filologiya elmləri doktoru Cavanşir Yusifli cavablandırır. Müsahibəni apardı K. Böyükçöl. Ədəbiyyat qəzeti. 9 yanvar 2015, səh: 2-3.
[6] Şərifova Salidə. Çağdaş Azərbaycan postmodern romanı. Bakı: Elm və təhsil, 2015, 104 s.
[7] Musayeva İradə. Ceyms Coysun "Uliss" romanı və ədəbiyyatda devrim. Bakı: Elm və təhsil, 2017, 164 s.
[8] Akimova, E. Çağdaş Azərbaycan postmodern şeirində tanrıya münasibət. I yazı // Ədəbiyyat qəzeti, – 2015, 26 iyun, – s. 6.
Akimova, E. Çağdaş Azərbaycan postmodern şeirində tanrıya münasibət. II yazı // Ədəbiyyat qəzeti, – 2015, 4 iyul, – s. 8.
Akimova, E. Nəsrimizin yeni uğuru // Ədəbiyyat qəzeti. – 2014, 19 dekabr, – s.1; 4
Akimova, E. "Yeni dünya" həqiqətləri - postmodernizm. // Ədəbiyyat qəzeti, –2015, 5 dekabr, – s. 9.
[9] Əsədova Afaq. Müasir Azərbaycan ədəbiyyatında postmodernizm: Kamal Abdulla yaradıcılığı. 525-ci qəzet, 23 iyun 2015, səh: 7.
Əsədova Afaq. Postmodernizm-ədəbiyyatlaşan dünya. 525-ci qəzet. 2012. 19 sentyabr. Səh: 7.
Əsədova Afaq. Türk postmodernizmdə roman. 525-ci qəzet. 2015. 18 iyun. səh: 7.
[10] Zeynalova Dilbər. Modernizm. Postmodernizm. (Terminoloji lüğət) Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2015, 96 s.
[11] Yaqubova Maral. Müstəqillik dövrü Azərbaycan nəsrində retrospeksiya: filologiya üzrə fəlsəfə doktoru diss. avtoreferatı. Bakı, 2008, 25 s.
[12] Rüstəmov Qismət. Gələcəyin tarixi. Bakı: Mütərcim, 2016, 336 s.

Əliyev [1] və başqalarının tədqiqatları sanballı nəzəri-metodoloji baza verir. Akademik İsa Həbibbəyli ilə professor Tehran Əlişanoğlunun redaktorluğu ilə çap olunan "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" [2] iki cildliyi dövrün ədəbi mənzərəsinin tədqiqi üçün ən əsas mənbələrdəndir. Professor Ramiz Əsgərin tərcümə etdiyi "Türk ədəbiyyatı tarixi" [3] kitabı da əsaslı qaynaqlardan biridir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Sosial funksiya postmodern ədəbiyyatın ən əsas xüsusiyyətlərindən biridir. Onun bədii ifadəsi isə Türkiyə və Azərbaycan postmodernist nəsrində özünəməxsus keyfiyyətlərlə təzahür etmişdir. Sosial funksiya hər iki xalqın ədəbiyyatında oxşar və fərqli cəhətləri ilə diqqəti cəlb etmişdir;
- Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiya oyun estetikası kontekstində maraq doğurmuşdur. Dil oyunları, mətnlərarası və sənətlərarası əlaqə həm oxucuda, həm də müəllifdə daha çox modernist və postmodernist nəsrə aid olan "Açıq mətn" və "Üçbucaq arzu" tezislərinin əyani, praktiki əhəmiyyət qazanmasına səbəb olmuşdur. Beləliklə, ədəbi-nəzəri konsepsiyanın bədii mətnlərə tətbiq imkanları genişlənmişdir;
- Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiya polifonik məzmun və forma xətti yaratmışdır. Bu baxımdan postmodern mətnlər ənənəvi bədii əsərlərdən kəskin şəkildə fərqlənmişdir. Nəticədə postsruktural nəsr nümunələri sonsuz sayda təhlil və analizlərə rəvac vermişdir. Çünki müəllifin ölümü mətnlə oxucu arasında yeni bir ünsiyyət modeli yaratmışdır;
- Metatəhkiyələrin izah və şərhləri yeni bir poetik mətn kosepsiyası yaratmışdır. Türkiyə nəsrində Oğuz Atayın

---

[1] Əliyev Araz. Metamodernizm: Postmodern fərdin sosial adaptasiyası. https://www.academia.edu/38217986/Metamodernizm__Postmodern_f%C9%99rdin_sosial_adaptasiyas%C4%B1.docx

[2] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 1-ci cild, məsul red. T. Əlişanoğlu; elmi red. İ. Həbibbəyli. Bakı: Elm və təhsil, 2016, 799 s.
Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2-ci cild, məsul red. T. Əlişanoğlu; elmi red. İ. Həbibbəyli. Bakı: Elm və təhsil, 2016, 1087 s.

[3] Türk ədəbiyyatı tarixi. Tərtibçi və önsöz, Yaqub Dəliöməroğlu. Tərcümə edən: Ramiz Əsgər, II c., Bakı: MBM-Bengü, 2010, 658 s.

“Tutunamayanlar”, Orxan Pamukun “Qara kitab” romanlarında ədəbi və həyati reallıqlar metatəhkiyənin predmetinə çevrilmişdir. Azərbaycan nəsrində isə Kamal Abdullanın “Yarımçıq əlyazma” romanı metatəhkiyənin semiotik qatını, bədii sistemini formalaşdırmışdır;

- Türkiyə və Azərbaycan postmodernist nəsrində dekonstruksiya polifonik səciyyə daşımışdır. Dekonstruksiya və dekanonizasiya yeni, çoxqatlı və çoxsəsli bədii mətnlərin yaranmasına səbəb olmuşdur. Bu xüsusiyyət istər dünya postmodernist nəsrində, istərsə də Türkiyə və Azərbaycan postmodernist nəsrində bütləri dağıtmışdır;

- Postmodernizm vahid konsepsiya və ideallara qarşı çıxmışdır. Türkiyə və Azərbaycan postmodernist nəsrində də sosial funksiyanın homogen məzmun və formasından imtina edilmişdir. Hər iki ölkənin postmodernist nəsrində ifadə və struktur estetikası “postmodern vəziyyət” kontekstində təzahür etmişdir.

**Dissertasiyanın elmi yenilikləri.** Tədqiqatda əldə olunmuş əsas yeniliklər aşağıdakılardan ibarətdir:

- Sosial funksiyanın bir çox xüsusiyyətləri ardıcıl olaraq şərh edilmişdir;
- Sosial funksiyanın modernist və postmodernist ədəbi-nəzəri konsepsiyası səciyyələndirilmişdir;
- Sosial funksiyanın bədii-kommunikativ keyfiyyətləri və müəllif-mətn-oxucu kontekstində bədii ifadə üsulları müəyyənləşdirilmişdir;
- Sosial funksiyanın poetik mətn konsepsiyası və onun estetik xətti öyrənilmişdir;
- Sosial funksiyada “Açıq mətn” anlayışı Türkiyə və Azərbaycan postmodernist nəsri əsasında tədqiq edilmişdir;
- Orxan Pamuk və Kamal Abdulla nəsrində sosial funksiyanın polifonik mətn və postmodern gerçəklik aspektindən təcəssümü, səciyyəvi xüsusiyyətləri göstərilmişdir;
- Türkiyə və Azərbaycan nəsrində dekonstruksiya və intertekstuallığın sosial funksiyasının formalaşmasında kəsb etdiyi əhəmiyyət şərh edilmişdir;

- Türkiyə və Azərbaycan postmodernist nəsrində "oyun estetikası" sosial funksiyanın əsas komponentlərindən biri kimi tipoloji-müqayisəli şəkildə analiz edilmişdir.

Bu tip nəzəri-metodoloji, bədii-estetik keyfiyyətlərin səciyyəvi xüsusiyyətləri müxtəlif yarımfəsillərdə tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti onun elmi nəticələrindən Türkiyə və Azərbaycan postmodernist nəsrinə dair tədqiqatlarda istifadə imkanları ilə müəyyənləşir. Praktiki əhəmiyyətinə gəlincə, Türkiyə və Azərbaycan postmodernist nəsri ali məktəblərin bakalavr və magistr pillələrində "Azərbaycan ədəbiyyat tarixi-5" (Müstəqillik illəri Azərbaycan ədəbiyyatı), "Müasir ədəbi proses", "Dünya ədəbiyyatı-4" (Türk xalqları ədəbiyyatı), "Bədii mətn təhlilləri" fənlərində tədris olunur. Həmçinin Türkiyə Respublikasının ali məktəblərində "Yeni türk ədəbiyyatı" və "Cümhuriyyət dövrü türk ədəbiyyatı" və başqa fənlər adı altında tədris edilir. Bu cəhətdən dissertasiya işindən həmin fənlərin tədrisi zamanı praktiki elmi vəsait kimi istifadə etmək olar.

**Dissertasiyanın aprobasiyası.** Tədqiqat işi Bakı Mühəndislik Universitetinin "Xarici dil" (Türk dili və ədəbiyyatı) kafedrasında hazırlanmışdır. Müəllifin dissertasiya işində əldə etdiyi əsas nəticə və yeniliklər onun ölkə daxilində və xaricində Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda çap etdirdiyi məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olan tədqiqatın ümumi həcmi: 289, 749 işarə (I fəsil: 95, 733; II fəsil: 88, 495; III fəsil: 74, 665 işarədir).

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqatın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın elmi yeniliyi, məqsəd və vəzifələri, metodoloji əsasları, aprobasiyası haqda məlumat verilir. Üç fəsildən ibarət olan dissertasiyanın **"Sosial funksiya ədəbi-nəzəri konsept kimi: ənənəvi, modernist və postmodernist kontekstlər"** adlanan birinci fəslində problemin elmi-nəzəri əsasları müəyyənləşdirilmiş, həm dünyada və Türkiyədə, həm də Azərbaycanda postmodernist nəsr və sosial funksiya probleminin inkişaf tarixi və tipologiyası

haqqında məlumat verilmişdir.

İlk fəslin **"Sosial funksiya"nın modernist və postmodernist konsepsiyası"** adlanan birinci yarımfəslində aparılmış tədqiqat nəticəsində məlum olmuşdur ki, sosial funksiyanın modernist və postmodernist konsepsiyaları öz xüsusiyyətləri və mövzuya yanaşma prinsiplərinə görə fərqlənir.

Hər bir bədii mətnin özünüifadə üsul və metodları aid olduğu ədəbi cərəyanın həqiqətini ifadə edir. Klassisizmdən postmodernizmə qədər bu proses davam etməkdədir. *"Postmodernizm? Bu termin haqqında nə düşünsək də, qane ola bilməyəcəyik"*.[1] Çünki termin çox mürəkkəb və polifonik struktura malik dünyagörüşünü, ictimai-siyasi, sosial-mədəni vəziyyəti, ədəbi-estetik təmayülü özündə əks etdirir. Bu baxımdan postmodernizm haqqında konkret elmi qənaət əldə etmək üçün ədəbiyyatın tarixən özünüifadə üsul, metod və sosial funksiya konsepsiyasına qısa nəzər salmaq zəruridir. Realist və ya romantik bir bədii mətnin özünə xas gerçəkliyi əks etdirməsi danılmazdır. Nəsrdə və bütün ədəbi növlərdə, sənət cərəyanlarında sosial funksiya anlayışının məxsusi gerçəklikləri, kanon və meyarları mövcuddur. Hər hansı əsərin sosial funksiyası dövr və ədəbi meyarlarla əlaqəlidir. Ədəbiyyatda sosial funksiya daşlara yazılan ilk bədii nümunələrdən tutmuş ilkin şifahi nitqdə öz əksini tapan nağıllar, əfsanələr, dastanlar, laylalar, oxşamalar, əmək nəğmələrinəcən ədəbi fikir tarixində formalaşıb və postmodern epoxada da davam edir. Misal üçün, üç fərqli ədəbiyyat mərhələsi və dövrünü xarakterizə edən bədii mətnləri müqayisə edək. Əvvəla, Azərbaycan şifahi xalq yaradıcılığı və eləcə də ibtidai insana aid əmək nəğmələrini götürək. Axı əmək nəğmələri ilk ədəbi nümunələr sayılır. İş prosesində qədim insanlar müəyyən situasiya və vəziyyətdə fərqli ritm və ahəng tutaraq nəğmələr söyləmişlər. *"Folklorun lirik janrına daxil olan əmək mahnıları – holavarlar, sayaçı sözlər, laylalar və s.-ni kişilər yer şumlayanda, ev tikəndə, ağır yük qaldıranda, ümumiyyətlə, kollektiv iş görəndə, qadınlar qoyun, keçi, inək, camış sağanda, xalça, palaz toxuyanda, körpələrini oxşayıb yatıranda gördükləri işin ahənginə uyğun olaraq mahnı*

[1] Richard J. Bernstein, Habermas and Modernity, Cambridge: Polity Press, 2015, p, 4

*oxuyardılar”.*[1] Bədii baxımdan o qədər də kamil olmayan əmək nəğmələri zamanla formalaşmışdır. Sayaçı sözləri, holavarlar da ilkin ədəbi təfəkkürün qədimliyinə əyani sübutdur. Bütövlükdə şifahi xalq ədəbiyyatının lirik növünə aid ədəbi nümunələrin daha qədim olması haqda fikir və mülahizələr çoxdur. Ancaq müasir dövrdə olduğu kimi, şifahi ədəbiyyat mərhələsində də hər üç növün eyni anda mövcud olması barədə fikir söyləyənlər də var. *“Hər üç üslubun şifahi yaradıcılıq prosesində yanaşı şəkildə fəaliyyət göstərməsi mümkün ola bilən prosesdir”.* [2]

Dünya ədəbi-nəzəri fikrində mifik yaddaşı xarakterizə edən və daha kamil poetik quruluş və düşüncəni təmsil edən epik nümunələr nisbətən sonrakı mərhələnin bədii məhsuludur. Bu baxımdan sənət və ədəbiyyatın qədimliyi barədə konkret fikir söyləmək çətindir. *“Oktavio Paz nəsr dilinin texniki, əvvəlcədən düşünülən bir hadisə olduğunu deyir. Danışıq dilində isə bir ritm, harmoniya, ahəng var. Şeir kimi təbiidir. Molyerin qəhrəmanı Müsyö Jordan nəsrin nə olduğunu bilmir. Çox natural bir hadisədir. Axı şeir təbii və genetik bir vəziyyətdir”.* [3]

Humanizm və klassisizm çağında ədəbiyyatın sosial mahiyyəti daha da genişlənmişdir. I Fransa inqilabından sonra daha konseptual məzmun qazanmışdır. Modernist epoxada üsyankar və inkarçı estetika əsasında, postmodernizmdə isə xaos və kosmosun vəhdətində təzahür edən sosial funksiya problemi və onun bədii ifadəsi ilə qarşılaşırıq. Buna görə də*“sənətin mənşəyini izah etmək üçün qədim insanların təbiət, heyvan və bitkilər aləmi haqqında ibtidai görüşlərini də bilmək lazımdır. Bu görüşlər animizm, magiya [əfsun], totemizm, antropomorfizm və s. şəkillərdə təzahür edirdi”.*[4]

Daha sonrakı proses isə yazılı ədəbiyyatla bağlıdır. Sosial funksiya yaradan digər mətnlər Roma şairi Vergilinin “Ekloqlar”, “Georgikilər” və “Eneida” poemalarıdır. Eramızdan əvvəlin sonuncu

---

[1] Əhməd Vüqar. Ədəbiyyatşünaslıq. Bakı: Müəllim nəşriyyatı, 2007, s, 109
[2] Nəbiyev Azad. Azərbaycan xalq ədəbiyyatı. Bakı: Çıraq, 2009, s, 190
[3] Babayev Ülvi. Dövrlər və ömürləri bir yerə yığmağın yorğunluğu: Gənc tənqidçinin tribunası. Bakı: Azərbaycan Yazıçılar Birliyinin ədəbi-bədii orqanı, Azərbaycan jurnalı, 2017, № 7-8, s. 214-218.
[4] Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və təhsil, 2012, s, 89

əsrində yaşamış Vergili "Ekloqlar" poemasında çoban nəğmələri yazmışdır. "Georgikilər" əmək və zəhmət barədə növbəti əsərdir. Burada kənd təsərrüfatının müxtəlif məsələləri obrazlaşdırılmışdır. "Eneida" şairin yetkin əsəridir. Roma şeirinin də sonuncu möhtəşəm epopeyasıdır. Homerin "İliada" və "Odisseya" poemalarından sonra antik ədəbiyyatda xüsusi əhəmiyyət daşıyır. Burada Troya müharibəsindən sonra Priamın qardaşı Anxizin oğlu Eneyin başına gələn qəribə əhvalatlar danışılır.

Üçüncü mətndə isə modern Avropada və başqa bir sivilizasiyada yaşayan bir sənətkar Herman Brox şair Vergilini öz qəhrəmanı edir. Brox "Vergilinin ölümü" romanında şairin ömrünün son on səkkiz saatını əbədiləşdirir. Üç fərqli ədəbi mətni birləşdirən və ayıran ortaq cəhət həmin əsərlərin sosial funksiyasıdır. Şifahi xalq ədəbiyyatı nümunələrinin ilkin təlqinləri, ədəbi meyarları ritm və ahəngə əsaslanırdı. Sosial funksiyası isə insanlarda əmək və zəhmətə sevgi aşılamaq, heyvanları sözün sehri ilə ovsunlamaq idi. Əmək nəğmələri şüursuz varlıqları belə ilhamlandırır və işə cəlb edirdi. Vergilinin poema-nəğmələrinin sosial funksiyası genişlənir. Artıq böyük sənət yaratmaq arzu və istəyi yaranır. İbtidai insanlar sənəti təbii şəkildə, öz-özünə yaradırdı. Ani bir vəziyyətə reaksiya kimi yaranan ibtidai sənətin sosial funksiyası nisbətən məhdud idi. Əlbəttə ki, istənilən halda, ədəbiyyat, nəğmələr, ilk şeirlər estetik tələbat kimi ortaya çıxmışdı. Ancaq sosial funksiyası ədəbi meyar və kanonlar baxımından təzə-təzə, rüşeym halında formalaşırdı. Vergili isə Homerdən sonra antik ədəbiyyatın ən yaxşı epopeyasını yazmağa cəhd göstərir. "Eneida" ədəbi-estetik dəyərlərə, yüksək sosial problematikaya söykənirdi. Deməli, bədii əsərlərin estetik miqyası, dil-üslub keyfiyyəti, metod və texnikası təkmilləşdiyi kimi sosial funksiyası da zamanla dəyişir və inkişaf edir. Bu proses klassisizmdən modernizmə, modernizmdən metamodernizmə qədər davam etmişdir və edir.

*"Modernizm – dəyişmək, inkar etmək hakimiyyətini təsdiq edən fikir tendensiyası və ideologiyasıdır"*.[1] Herman Broxun "Vergilinin ölümü" romanı da inkarçı modernizmin əsas, təməl əsərlərindəndir.

---

[1] Kamal Nərmin. Umberto Eko və postmodernizm fəlsəfəsi. Bakı: Qanun, 2012, s, 7

Modernizmə xas şüur axını, ekzistensial vəziyyət, keçmişi inkar və s. keyfiyyətlər öz əksini tapır. Keçmişi yenidən dəyərləndirməsini nəzərə alsaq, postmodern ədəbiyyata dair bir çox cəhətləri də özündə cəmləşdirir. "Vergilinin ölümü" modernist və postmodernist xüsusiyyətləri özündə cəmləşdirməsi nöqteyi-nəzərindən Ceyms Coysun "Uliss" romanı ilə oxşar cəhətləri bölüşür. *"Brox Coysdan sonra Avropa ədəbiyyatının ən böyük romançısıdır və "Vergilinin ölümü" "Uliss"dən sonra oyun estetikasının texniki olaraq nə qədər inkişaf etdiyini göstərən real sübutdur*". [1] "Uliss" Homerin "Odisseya" əsərinin XX əsrdəki dekonstruksiyasıdır. Herman Brox şair Vergilinin ömrünün son anlarını təsvir etməklə eramızdan əvvəlki dövrlə XX əsr arasında əlaqə yaradır. Polifonik sosial funksiyası olan "Vergilinin ölümü" romanı xalis modernist romandır. Ancaq oyun estetikasının çoxsəsli qurğusu, intertekstuallıq, tarixi yenidən dəyərləndirməsi sosial funksiyanın postmodern meyarlarına da müəyyən qədər uyğundur və aradakı bütöv struktur fərqini nəzərdən qaçırmaq olmaz. *"Modernizm bədii əsərin daxili vəhdəti və bütövlüyünün mövcudluğunu tələb edir, onun hissələrinin bir-biri ilə birləşərək vahid bir tamı yaratmasına böyük diqqət verirdi. Postmodernizm vəhdətə can atmır, üslubi və tematik müxtəlifliyə qol qoyur, əsərin linqvistik və ideoloji ziddiyyətlərini açıqlayır*".[2]

Dissertasiyanın birinci fəslinin **"Sosial funksiyanın ədəbi-nəzəri, bədii-kommunikativ konsepsiyası: müəllif-mətn-oxucu konteksti"** adlanan ikinci yarımfəslində aparılmış tədqiqatda məlum olur ki, postmodern ədəbiyatın nəzəri əsaslarını yazan Lesli Fidler Amerikan mədəniyyəti ilə elmi fantastikanın bir yerdə olduğu mətnləri təhlil edir, Konrad və Coysun əsərlərində belə kütləvi mədəniyyətə xas xüsusiyyətlər tapır. Praktiki olaraq isə türk postmodernist nəsrində sosial funksiyanın ədəbi-nəzəri konsepsiyası tədqiq edilir.

XX əsrin əvvəllərində türk nəsrində avropalaşma meyilləri

---

[1] Broch Herman. Vergilius'un Ölümü. Çevrimen: Ahmet Cemal. İstanbul: İthaki Yayınları, 2012, s 480

[2] Broch Herman. Vergilius'un Ölümü. Çevrimen: Ahmet Cemal. İstanbul: İthaki Yayınları, 2012, s, 178

güclənir. Əhməd Həmdi Tanpınarın “Hüzur” və “Saatları qurma institutu” romanları ilə müasir türk ictimai-siyasi həyatı və çıxılmaz vəziyyətlər modern bir üslubda təqdim edilir. “Mən Tanpınarda türkiyəli bir intibah, islahat və maarifçiliyin imkanlarını tapıram və bunun Türkiyə modernizminin intellektual əsaslarını yaradacağını iddia edirəm”.[1] Həqiqətən də, modern təfəkkür və postmodernizmin sosial funksiyası Tanpınarla başlayır. Daha sonra Yusuf Atılqan “Avara adam” və “Anayurd hoteli” romanları ilə modernizmi ekzistensial səviyyədə türk nəsrinə gətirir. Ataydan sonra Fərid Edgünun “Hakkaridə bir mövsüm”, Lətifə Təkinin “Əziz, arsız ölüm” , Nazlı Erayın “Yuxu stansiyası”, “Ah, bəyim, ah”, “Qız öpmə növbəsi”, “Eşq artıq burada yaşamır”, “Aşiq tutuquşu barı”, Bilgə Qarasunun “Gecə”, Güney Dalın “Fabrikdə bir saraylı”, “Tükləri yolunmuş meymun”, Ədalət Ağaoğlunun “Yayın sonu”, “Üç-beş nəfər”, “Xeyir”, “Ruhun üşüməyi”, “Yüksək gərginlik”, “Səssizliyin ilk səsi”, “Həyatı müdafiə formaları”, “Romantik bir Vyana yayı”, “Dərd dinləmə mütəxəssisi”, Hilmi Yavuzun “Fehmi K-nın qəribə macəraları”, Pınar Kürün “Bir cinayət romanı”, Əlif Şəfəqin “Eşq”, “İsgəndər”, “Ustam və mən”, “Həvvanın üç qızı”, Alper Canıgüzün “Dadlı yuxular”, “Oğullar və rəncidə ruhlar”, “Gizli agentlik”, “Cəhənnəm çiçəyi”, Murad Menteşin “Qorxma, mən varam”, “Dublyorun dilemması”, “Ruhu Mücərrəd”, Əmrah Sərbəsin “Hər təmas iz qoyur”, “Son qazıntı”, “Erkən itirənlər” nəsr əsərləri türk ədəbiyyatında sosial funksiyanın modernist və postmodenist konsepsiyasını yaradır. Əhməd Altan, Pəridə Cəlal, Nədim Gürsel, Ərhan Bener, Səlim İrəli, Erendüz Atasü, Ayla Kutlu, Mustafa Kutlu, Nazan Bekiroğlu və Buket Uzuner modernist və postmodernist nəsrin yeniliklərini öz əsərlərinə tətbiq edirlər. İsgəndər Pala isə tarixi tədqiqatlar nəticəsində yazdığı romanlarında alternativ tarix və fikirlərə qapı açır. Palanın “Babilistanda ölüm, İstanbulda eşq”, “Qətreyi-matəm”, “Şah və Sultan”, “Od” və “Əfsanə” romanları alternativ tarix yaratmaq baxımından postmodern elementlərə malikdir.

[1] Dellaloğlu Besim Fatih. Modernleşmenin Zihniyet Dünyası Bir Tanpınar Fetişizmi. Ankara: Kadim Yayınları, 2016, s, 228

Azərbaycan nəsrində Həmid Herisçi "Nekroloq" romanında mətnlə oynama estetikasını tətbiq edir. Anarın "Göz muncuğu" povesti də postmodern konsepsiyanın Azərbaycan nəsrində praktiki əhəmiyyət kəsb etməsində xüsusi rol oynayır. Nərmin Kamal "Umberto Eko və postmodernizm fəlsəfəsi" kitabı ilə nəzəri, "Aç, mənəm" romanı ilə praktiki olaraq bu cərəyanı Azərbaycan ədəbi mühitində əsaslandırır. Birinci kitabda postmodernizm anlayışının mahiyyətini, ikincidə mahiyyətin mətndə əks olunma dərəcələrini göstərməyə çalışır. Bu vəziyyət postmodernizm haqqında polemika yaradır. Nərmin Kamal "nəinki postmodern haqda danışır, yazır, onu azartla izah və şərh eləyir, eyni inadla postmodernə qarşı çıxanlara qarşı durur".[1] Salidə Şərifovanın postmodern Azərbaycan romanı barədə tədqiqatı da xüsusi əhəmiyyət kəsb edir.[2]

Postmodernizm ətrafında polemikada fərqli düşünən, bu vəziyyətə etiraz edən yazıçı və ədəbiyyat adamlarının fikirləri də maraq doğurur. "Postmodernizm hoqqabazlıqdır. Mən əvvəli və sonu məlum olanı bəyənirəm, onu təqdir edirəm".[3] Postmodernizm Azərbaycanda da müəmmalı, dəyərləri alt-üst edən anlayış kimi birmənalı qarşılanmır. Akademik Teymur Kərimli postmodernizm və postmodernist yazıçılar barədə ünvanlanan suallara belə cavab verir: *"Postmodernizm bizim ədəbiyyata böyük ziyan gətirdi... Orxan Pamukun "Mənim adım Qırmızı" romanından 15 səhifə oxudum, sonrasını oxuya bilmədim".*[4] Akademikin fikirləri maraq doğurur. Çünki postmodernizm cərəyanı və onun nümayəndələri fərqli düşüncə və fikirlərə rəvac verir. Teymur Kərimlinin Umberto Eko haqqında fikirləri də birmənalıdır. *"Bütün dünya Umberto Ekonu dahi hesab edir, mən onu oxuya bilmədim. Bəzən axına qarşı üzməyi bacarmalısan".*[5] Sənətşünas alim isə potmodernizmin miflə bağlı cəhətlərini maraqlı detal kimi qeyd edir. *"Mif postmodernizm və*

[1] Əlişanoğlu Tehran. Müstəqillik körpüsünü keçənlər. Bakı: Elm və Təhsil, 2015, s, 435
[2] Salidə Şərifova. Çağdaş Azərbaycan postmodern romanı. Bakı: Elm və təhsil, 2015, 104 s.
[3] Mirələmov Hüseynbala. "Postmodernizm hoqqabazlıqdır". 525-ci qəzet, 29 oktyabr 2009, səh: 6.
[4] Kərimli Teymur. Postmodernizm bizim ədəbiyyata böyük ziyan gətirdi. Olaylar. 28 fevral - 2 mart 2015, səh: 13.
[5] Yenə orada

*[hətta post-post modernizm] dönəmində də canlılığını itirmir, onun gündəliyində mobilcəsinə yaşayır və özünü sitatlaşdırmağa, kollaja çevirməyə icazə verir”.*[1]

Türkiyədə də postmodernizm estetikası ilə yazılan nəsr nümunələri haqda geniş müzakirə və polemikalar gedir. Xüsusən, Oğuz Atay, Orxan Pamuk və Mətin Kaçanın romanlarında postmodernist xüsusiyyətlər müzakirə edilir.

Azərbaycanda İlqar Fəhminin “Akvarium”, “Akvalanq” və “Çənlibel tülküsü” trilogiyasına daxil olan “Sui-qəsd”, “Qarğa yuvası” və “Kölgədə əqrəb” əsərləri, Fəxri Uğurlunun “Tanrı dağları” hekayələr silsiləsi, Şərif Ağayarın “Kərpic kəsən kişinin dastanı”, “Haramı”, “Arzulardan sonrakı şəhər”, “Ağ göl”, Pərvizin “Yad dildə”, Məqsəd Nurun “Şəhər meri”, Mirmehdi Ağaoğlunun “Görüş”, “Küləyi dişləyən”, Kəramət Böyükçölün “Çöl”, Qan Turalının “Doqquz hekayə”, “Fələk qırmancı” kitabları postmodernistcə yazılmış nəsr əsərlərindən ibarətdir.

*“Beləliklə, postmodernizm modernizm və modernliyə və onların ictimai, siyasi, etik və estetik uğursuzluqlarına qarşı əsaslı bir reaksiyadır*”. [2] Umberto Ekonun “Təhkiyə meşələrində 6 səyahəti” də Fidlerin görüşləri ilə üst-üstə düşür. Aleksandr Düma və Ceyms Coys romanları arasında təhlillər aparan Eko üstünlüyü nə əyləncəli, nə də ciddi nəsrə verir.[3]

Birinci fəslin **“Sosial funksiyanın poetik mətn konsepsiyası”** adlanan üçüncü yarımfəslində, əvvəla, texnologiyanın ağlasığmaz inkişafının vizual sənətlərə ədəbiyyatdan daha geniş və maraqlı təqdimat üçün imkanlar verməsi tədqiq edilir. Postmodern ədəbiyyatın nəzəri əsaslarını yazan Lesli Fidler Amerikan mədəniyyəti ilə elmi fantastikanın bir yerdə olduğu mətnləri təhlil edir. Konrad və Coysun əsərlərində də kütləvi mədəniyyətə xas xüsusiyyətlər tapır. Konradın “Kölgə xətti” əsərində postmodern

---

[1] Talıbzadə Aydın. Postmodernizm gündəliyində mif alqış və qarğış estetikası. 525-ci qəzet, 10 iyil 2009, səh: 7.

[2] McGowan Anthony. Postmodern Düşüncenin Eleştirel Sözlüğü. Derleyen: Stuart Sim, Çevirenler: Mukadder Erkan ve Ali Utku, İstanbul: Ebabil Yayıncılık, 2006, s, 12

[3] Eco Umberto. Anlatı Ormanlarında Altı Gezinti. Çeviren: Kemal Atakay. İstanbul: Can Yayınları, 2013, 186 s.

elementlər öz əksini tapır. *"Konradı vaxtından əvvəl gələn bir modernist kimi də düşünmək mümkündür. Ancaq daha çox modernizmin xəbərçisi və müxtəlif formalarda, mətnlərdə postmodernizm və ya şizofrenik yazı üslubu dediyimiz tamamilə fərqli bir formanın müəllifidir".*[1] Yəni Konrad kimi yazıçılar elitar olduğu qədər kütləvidirlər. "Uliss" romanının "Nausika" bölməsindəki kütləvi, yüngül romanslar da yeni estetikaya keçiddir. Sosial funksiyanın postmodernist ədəbi-nəzəri konsepsiyasını yaradan və analiz edən nəzəriyyəçi İxab Xassandır. Xassan "Orfeyin parçalanması: postmodern bir ədəbiyyata doğru" kitabında ədəbiyyatda baş verən rekonstruksiyanın səbəblərini yazır. Xassan amerikan yazıçı Henri Millerin fransız şair Artur Rembo haqda kitabında işlətdiyi tezisdən istifadə edir. "Dünyanın, ananın bədənindən sürgün edilən" insanların, xüsusilə, şair və yazıçıların bədii əsərləri və ədəbi cərəyanlar, estetik ideal və bəyənatların cinsiyyəti həmişə dişi olub. Yəni ədəbiyyat gözəlliyi ifadə edir və bu da çoxalır, artır. Ancaq modernist və postmodernist ədəbiyyatın cinsiyyəti erkəkdir. Bu hal postmodernizmin çoxsəsli olması ilə uyğun gəlməsə də, sənət və estetik dəyərlərdə inqilab etməsi ilə bağlıdır. *"Özünü təmizləmək üçün ədəbiyyat ehtiyacı ilə alışıb-yanan estetikanın amansız bir şəkildə cinsiyyətləşməsi və Sadı Bekketin, Heminqueyi Kafkanın yanına qoyan tarixdir".* [2] Postmodern ədəbiyyatın bu qədər eyniləşdirmə və adiləşdirmə konsepsiyası dövrün sosial, iqtisadi və siyasi şəraiti ilə əlaqəlidir.

Dissertasiyanın **"Sosial funksiyanın postmodernist əsasları: dekonstruksiya və intertekstuallıq"** adlanan ikinci fəslində Türkiyədə avanqard ədəbiyyatın modernist və postmodernist estetika əsasında formalaşma prosesi tədqiqata cəlb edilir. İlk avanqardist türk romanlarında modernist və postmodernist xüsusiyyətlər bir yerdə əks olunur. Türk nəsrində müasirlik və fərdi ədəbi-estetik xüsusiyyətlərin yaranması XIX əsrdən başlasa da, estetik yeniliklər

---

[1] Jameson Fredric. Siyasal Bilinçdışı. Çevirenler: Yavuz Alogan, Mesut Varlık. İstanbul: Ayrıntı Yayınları, 2011, s, 194

[2] Hassan Ihab. The Dismemberment of Orpheus: Toward a Postmodern Literature. University of Wisconsin Press, 2010, p, 213

və dünyada baş verən ədəbi prosesin ardıcıl inkişafından bir qədər geridə qaldı. Xalid Ziya Uşaqlıgil XIX əsrin sonlarında, Əhməd Həmdi Tanpınar XX əsrin 40-60-cı illərində türk ədəbiyyatında modernist xətti başladırlar. Oğuz Atay "Tutunamayanlar" və "Təhlükəli oyunlar" romanları ilə türk nəsrinə modernizmlə postmodernizmə aid xüsusiyyətləri bir yerdə gətirir.

Tədqiqatın ikinci fəslinin **"Orxan Pamuk və Kamal Abdulla nəsrində polifonik mətn və postmodern gerçəklik sosial funksiya kontekstində"** adlanan birinci yarımfəslində aparılan tədqiqat göstərir ki, 1980-ci illərdən etibarən Orxan Pamukun modernist və postmodernist estetikaya əsaslanan romanları yeni yaradıcılıq texnikası ilə təzahür edir. Azərbaycan ədəbiyyatında isə postmodern nəsrin aparıcı imzası Kamal Abdulladır. Kamal Abdulla yaradıcılığında postmodern elementlər "Yarımçıq əlyazma" romanından əvvəl yazdığı hekayə və dram əsərlərində təzahür edir. Yazıçının digər hekayə və romanlarında da postmodern gerçəklik analiz edilir. "Sehrbazlar dərəsi" və "Unutmağa kimsə yox" əsərləri də polifonik roman kimi təhlil olunur.

*"1980-ci illərdən etibarən Orxan Pamukun modernist və postmodernist hadisələrin bir-birinə qarışdığı romanları yazıçının yalnız avanqardist kompozisiya və oyun estetikasına aid yaradıcılıq texnikasını qeyri-adi şəkildə tətbiq etmək bacarığını göstərmir, həmçinin müasir ədəbiyyat nəzəriyyəsini də nə qədər yüksək səviyyədə bildiyini sübut edir"*.[1] Orxan Pamuk "Bəyaz qala" əsəri ilə türk romanında postmodern oyun estetikası yaradır. "Cövdət bəy və oğulları" adlı ilk romanı 1982-ci ildə çap olunduqdan dərhal sonra diqqəti çəkərək Orxan Kamal roman mükafatını (1983-cü ildə) alır. Tarixi mövzuda yazılmış ilk postmodern əsəri "Bəyaz qala" romanı isə yazıçıya beynəlxalq miqyasda şöhrət qazandırır.

1980-ci illərdəki yeni, innovativ çalarlar Pamuk yaradıcılığından yan keçmir. 1987-ci ildə Stiven Hokinq "Zamanın qısa tarixi" kitabında deyirdi: *"Biz qəribə və möcüzəli bir kainatda yaşayırıq. Onun yaşını, ölçüsünü, gücünü və gözəlliyini qavramaq üçün böyük*

[1] Ecevit Yıldız. Türk Romanında Postmodernist Açılımlar. İstanbul: İletişim Yayınları, 2014, s, 91

*təxəyyül gücü lazımdır”.* [1] Zaman və qravitasiya qanunları haqqındakı elmi söhbətlər Pamukun romanında təxəyyül gücü və gözəllik duyumu olaraq qavranılır. Məhz bu səbəbdən “Qara kitab” romanında geniş və elastik bir zaman vahidi var. Tarix, fizika, metafizika və kimya bir səyahət motivi ilə bədii inikasın predmetinə çevrilir.

“Bəyaz qala” romanı da Pamuk nəsrini anlamaq üçün həm estetik kilid, həm də açar rolunu oynayır. “Bəyaz qala” poetik aurası və ifadə etdiyi mənalar baxımından “Min bir gecə nağılları”nın bədii strukturu ilə oxşardır. Ancaq klassik bədii əsərlərdən fərqli olaraq, postmodern gerçəkliyə sadiqdir. “Bəyaz qala” romanını ilk dəfə akademik səviyyədə təhlil edən amerikalı alim Cey Parini yazır: *“Şərqdə yeni bir ulduz - türk yazıçısı Orxan Pamuk doğuldu. “Bəyaz qala” onun oyun estetikasına əsaslanan mətnlərini təmsil edən bir nümunədirsə, Pamuk bu romanın üstündə bir xeyirxahlıq mələyi kimi dayanan Xorxe Luis Borxes və İtalo Kalvino ilə müqayisə edilmək haqqı qazanıb”.* [2] Parininin “Bəyaz qala” romanını dünya nəsrində postmodernizmin iki böyük nümayəndəsi Borxes və Kalvino ilə müqayisə etməsi təsadüfi deyil. Borxes “Ficciones” hekayələr toplusunda, Kalvino “Bir qış gecəsi əgər bir yolçu” romanında tarix, mif və əfsanələri postmodern baxışla ifadə edirlər. Tarixə ironiya edirlər. Borxesin tarix anlayışı ədəbiyyat tarixinə səyahətlə, mətnlərarası əlaqə ilə tamamlanır. Pamuk da “Bəyaz qala” romanında əkizlik və bənzərlik mövzusunda olan əsərləri dekonstruksiya edir. Kalvino isə mətnlərarası əlaqə qurmaqla özü öz romanının təhlilini verir.

Pamukun tarixə müraciəti və şəxsiyyət ikiləşməsi problemini qabartmasında postmodernist oyun estetikasının çox böyük rolu var. Postmodernizmin nəzəriyyəçilərindən olan Jak Derrida bu dövrdə ədəbiyyatı oyun estetikasında mövcud olan “qəribə müəssisə”

---

[1] Hokinq Stiven, Mlodinov Leonard. Zamanın daha qısa tarixi. Bakı: Parlaq imzalar, 2016, s, 11

[2] Parini Jey. Pirates, Pashas and the Imperial Astrologer. May 19, 1991, Sunday. https://www.nytimes.com/books/98/06/28/nnp/pamuk-castle.html

adlandırır.[1]

Kamal Abdulla yaradıcılığında postmodern təzahürlər "Yarımçıq əlyazma" romanından əvvəl yazdığı hekayə və dram əsərlərində təzahür edir. Kinoşünas Aydın Dadaşov "Postmodernizm modernizmin inkarı kontekstində" məqaləsində Kamal Abdulla dramaturgiyasını nəsr əsərləri ilə müqayisəli şəkildə təhlil edir: *"Kamal Abdullanın "Şah İsmayıl, yaxud Hamı səni sevənlər burdadır..." pyesi mövzu baxımından tarixi, ictimai üslub cəhətdən postmodernizm, janr təyinatına görə isə psixoloji dram göstəricilərini özündə birləşdirir".*[2] Yazıçının "Edam vaxtını dəyişmək olmaz" kitabındakı hekayələr postmodern elementlərlə zəngindir. Ancaq sosial funksiya problemini ifadə baxımından hekayə janrının imkanları məhduddur. Bu baxımdan hekayə janrında olan postmodern əsərlər geniş şəkildə təhlilə cəlb edilməmişdir.

Professor Asif Hacılı və professor Pərvanə Bəkirqızı Kamal Abdulla yaradıcılığında mifopoetika anlayışını postmodern kontekstdə şərh edirlər. Asif Hacılıya görə, *"K.Abdullanın pyeslərində, romanlarında və hekayələrində yeni üslub özünü həm zahiri, həm də daxili qatlarda göstərir".*[3] Pərvanə Bəkirqızı bu yanaşma tərzini əsas götürərək Azərbaycan ədəbiyyatında postmodernizm estetikasının formalaşmasını və mahiyyətini analiz edir: *"2000-ci illərdən etibarən postmodernizm estetikası Azərbaycan ədəbiyyatında, xüsusən dramaturgiyada bu yeni dünyadərkinin və dünyaduyumunun əksi kimi bədii nümunələrdə əksini tapmaqdadır ki, əksərən də tarixi rəvayət, mif süjetlərindən ibarət olan mətnlər illüziyalar və reminissensiyalar ilə ətə-qana dolur".*[4] Kanonlar, bütlər və tabular dağıdılır. Azərbaycan nəsrində postmodern mərhələ başlayır. Ədəbiyyatda dekanonizasiya məsələsi ədəbiyyat tarixi qədər qədimdir. Hərçənd ki, terminin özü gəncdir.

---

[1] Derrida Jacques. Edebiyat Edimleri. Çevirenler: Mukadder Erkan, Ali Utku. İstanbul: Otonom Yayıncılık, 2010, 498 s.

[2] Dadaşov Aydın. Postmodernizm modernizmin inkarı konetkstində. "Ulduz" jurnalı, aprel 2014, s, 66

[3] Hacılı Asif. Kamal Abdulla: seçimin mifologiyası. Bakı: Mütərcim, 2010, s, 125

[4] Bəkirqızı Pərvanə. Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu. Bakı: Elm və təhsil, 2015, s, 177

Dekanonizasiya anlayışı daha çox modernist və postmodernist ədəbiyyatda öz əksini tapmışdır. Tarixən ən sadə və zəruri kanonlara əməl etməyən onlarla böyük yazıçı da mövcuddur. *"Bizim ictimai təfəkkürümüzdə tarixən gələn romantik bir padşahlıq kultu var; "Yarımçıq əlyazma" tarixi taxtdan salmağa cürət elədi... Bu əsl postmodern roman modeli idi".*[1] Bütlərin dağılması gündəlik məişət hadisəsindən tutmuş böyük ictimai-siyasi, sosial-mədəni tarixə qədər olan bir vaxt vahidini əhatə edir. Kamal Abdullanın "Sehrbazlar dərəsi" və "Unutmağa kimsə yox" romanlarında da dekanonizasiya təzahür edir.

Tənqidçi Əsəd Cahangir böyük polemika doğuran "Dəmirbaşlar" essesində "Yarımçıq əlyazma" romanı və postmodernizmə qeyri-postmodern ədəbi-nəzəri düşüncə tərzi ilə yanaşır. Tənqidçinin fikirlərindən biri digərini inkar edir. Professor Təyyar Cavadov bu məqamı olduqca uğurlu bir şəkildə şərh edir. Çünki Əsəd Cahangir ənənəvi mətn təhlili ilə postmodernist yanaşma tərzini bir-birinə qarışdırır. *"Postmodernsit yazıçı kimi Kamal Abdullanın düşüncəsində zamanlar arasındakı fərq silinib, buna görə onun romanının dilini çıxmaq şərtilə əsərdə ənənəvi tarixi əsərlər üçün səciyyəvi olan xüsusi kolorit yoxdur"* .[2] Professor bir cümlə ilə tənqidçinin fikrindəki qeyri-dəqiqliyi göstərir: *"Fikrimizcə, postmodernist yazıçının əsərində "ənənəvi tarixi əsərlər üçün səciyyəvi olan xüsusi kolorit" axtarmaq məntiqi görünmür".*[3] Çünki postmodernizm tarixi, keçmişi yenidən dəyərləndirir. Tarixi dili, məkan və dövrü canlandırmaq məqsədi yoxdur. Tarix estetik dekordur. Keçmişə və tarixə çoxsəsli və alternativ baxış bucağını formalaşdırır. Hətta süjet daxilində alternativ süjet, alternativ obraz, alternativ fikir və düşüncə yaradır.

İkinci fəslin **"Türkiyə və Azərbaycan nəsrində dekonstruksiya və intertekstuallıq"** adlı ikinci yarımfəslində aparılmış tədqiqatın nəticələrinə görə, hər iki xalqın postmodern

---

[1] Əlişanoğlu Tehran. Milli nəsrdə Azərbaycan obrazı: tarix və müasirlik konetkstində. Bakı: Elm və Təhsil, 2017, s, 550

[2] Cahangir Əsəd. Kim yatmış, kim oyaq? Bakı: Yazıçı, 2012, s, 80

[3] Salamoğlu Təyyar (Cavadov). Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: BQU, 2008, s, 413

nəsrində yazıçılar oxşar və fərqli yaradıcılıq metodları və oyun estetikasından istifadə edirlər. Türkiyədə Oğuz Atay, Orxan Pamuk, Lətifə Təkin, Muratxan Munqan, Nazlı Eray və b., Azərbaycanda isə Kamal Abdulla, Həmid Herisçi, İlqar Fəhmi, Şərif Ağayar, Mirmehdi Ağaoğlu, Səxavət Sahil və b. özlərindən əvvəlki ədəbi, elmi, dini və mədəni mətnlərdən kollaj yaradır, həmin mətnləri dekonstruksiya edir və onlarla mətnlərarası əlaqəyə girirlər.

İkinci fəslin **"İntertekstuallıq və dekonstruksiya poststruktural konsept kimi"** adlanan üçüncü yarımfəslində poststruktural mətnlər təhlil edilir. Hər iki xalqın ədəbiyyatından konkret ədəbi nəsr nümunələri fransız ədəbiyyat strukturalisti Rene Jirarın "Üçbucaq arzu" adlı nəzəri və praktiki xarakter daşıyan tezisi əsasında analiz edilir. Türk nəsrindən Oğuz Atayın "Tutunamayanlar", Azərbaycan ədəbiyyatından Mübariz Örənin "Ağ buludlar" romanı poststruktural mətn kimi geniş təhlilə cəlb edilir. Jak Derrida, Mişel Fuko, Rolan Bart və Jak Lakan kimi poststrukturalistlərin ədəbi-nəzəri görüşlərinin "Tutunamayanlar" və "Ağ buludlar" romanlarında praktiki səciyyə daşıması konkret elmi nəticə və qənaətlərlə tədqiq edilir.

Tədqiqatın "**Sosial funksiya və ehtimalların sonsuzluğu kontekstində yaranan mətn konsepsiyası"** adlı üçüncü fəslində Aristotelin "Poetika" əsərindən postmodern epoxaya qədər dəyişən mətn konsepsiyaları tədqiq edilir. Artıq postmodernist estetikada "İntermətnlik görmə bucağından dünya nəhəng mətn qismində göz qarşısında durur. Bu mətndə artıq hər şey deyilmişdir".[1] Antik ədəbiyyatda mətnlər ideal xarakter daşıyır. Orta dövrdə mücərrəd məzmunlu estetika əsasdır. XIX əsrdə romantik və realist mətnlər əsasında mimesis estetika xüsusi rol oynayır. Postmodern mətnlərdə isə sonsuz sayda ehtimallar estetikası aparıcıdır. Türkiyə və Azərbaycan nəsrindən seçilən konkret nümunələr əsasında ehtimal estetikası əyani şəkildə göstərilir.

Dissertasiyanın üçüncü fəslinin **"Türkiyə və Azərbaycan nəsrində "oyun estetikası" və sosial funksiya"** adlanan birinci yarımfəslində Türk ədəbiyyatında Mətin Kaçan, Həsən Əli Topdaş

---

[1] Quliyev Qorxmaz. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları, Bakı: 2012, s, 185

və İhsan Oqtay Anarın romanlarında oyun estetikasının polifonik və hetrogen xarakter daşıması geniş şəkildə şərh edilir. Azərbaycan nəsrində isə Həmid Herisçi, Şərif Ağayar, Mirmehdi Ağaoğlu, Səxavət Sahil, Qan Turalı və b. imzaların əsərlərindəki sosial funksiya oyun estetikası kontekstində təhlil olunur. Xüsusən, Mirmehdi Ağaoğlunun "Küləyi dişləyən", Həmid Herisçinin "Solaxay", Səxavət Sahilin "İsanın qadını", Qan Turalının "Fələk qırmancı" və Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanları oyun estetikası qabarıq olan mətnlər kimi elmi və bədii əsaslarla analiz edilir. . Həyatın vizuallaşması və yüksək texnologiya bədii mətnlərdən təsirli semantik effekt və qeyri-adi struktur tələb edir. Avstriya yazıçısı Robert Muzil "Həyatı boyunca azalan" kitabında gündəlik yaşayış, ədəbiyyat və onun səmərəsini yeni və qalıcı yazı metodları ilə əlaqələndirir. Muzilin "Yeniyetmə Törlesin sarsıntıları" və "Xassəsiz adam" romanlarında tətbiq etdiyi yeniliklər, oyun estetikasının sirli metodları bu kitabda nəzəri-fəlsəfi səciyyə daşıyır. Kitabın "Sənət yubileyi" bölməsində bir bədii mətnin davamlılıq və rəqabəti üçün oyun estetikasının zəruriliyi qabardılır. Oyun estetikası dövr və məkana uyğunlaşanda gələcəyə ötürülür. *"Dünyanın bir əsr sonra nə edəcəyini demək yüz il sonra necə yazacağını deməkdən daha asandır"*.[1] Çünki ədəbiyyat öz parlaq təsir gücünü qoruyub saxlamaq üçün hər əsrə uyğun yaradıcı metod və vasitələr axtarır.

Mətin Kaçan "Ağır roman" əsərində isə postmodern struktur və dil yaradır. Əsərin qəhrəmanı Saleh öz dövrünün Don Kixotudur. Saleh Don Kixotdan fərqli olaraq, hər şeyi dərk etməkdədir. Ancaq ədaləti bərpa etmək romantikası və gənclik ehtirası ona real şəraiti və mühiti dəyərləndirməyi unutdurur.

Sosial funksiyanın postmodern konsepsiyasını yaradan türk yazıçılarından biri də Həsən Əli Topdaşdır. Həsən Əli türk ədəbiyyatına qeyri-adi poetik dil strukturu gətirir. O, "Sonsuzluğa nöqtə", "Kölgəsizlər", İtirilmiş xəyallar kitabı", "Min hüznlü həzz", "Yuxuların şərqi", "Həba" və "Quşlar ağlayırlar" romanları ilə türk nəsrində yeni mərhələ yaradır. "Sonsuzluğa nöqtə" kitabı yazıçının

[1] Musil Robert. Yaşarken Açılan Miras. Çevirmen: Ahmet Cemal. İstanbul: Yapı Kredi Yayınları, 2012, s, 80

poeziya ilə nəsrin sərhədlərində yaratdığı üslubun bəhrəsidir.

İhsan Oqtay Anarla ingilis yazıçı Con Faulzun yaradıcılığında oxşarlıqlar vardır. Daha çox polifonik estetika kontekstində bir-birinə yaxın üslub sərgiləyirlər. Con Faulzun "Fransız generalın qadını" romanı çoxsəsli ensiklopedik romandır. *"Sərhədsiz olan anlayışların xaricində hər şey dəyərsizdir".*[1] Faulz sərhədsiz bir estetik xəritə çəkir. Oyun estetikası sərhədsizliyin göstəricisidr. Eşq, cinsiyyət, azad düşüncə kimi mövzuları postmodern süzgəcdən keçirən romanda Viktoriya dövrü İngiltərəsi ilə XX əsrin İngiltərə həyatı qarşılaşdırılır.

Azərbaycan postmodern nəsrində polifonik estetika kontekstində təhlilə cəlb edilməyə layiq romanlar sırasında Kamal Abdullanın "Sehrbazlar dərəsi" və "Unutmağa kimsə yox" romanlarıdır. . Aydın Talıbzadə romana yazdığı ön sözdə bu məqama toxunur: *"Bu roman xirqə-xirqədir. Xirqələrsə sanki tül pərdələrdir, atılıb personajların üstünə. Çünki bu personajlar yalnız səhranın ilğım koordinatlarında mövcuddurlar".*[2]

Üçüncü fəslin **"Türkiyə və Azərbaycan postmodern nəsrində sosial funksiya polifonik estetika kontekstində"** adlı ikinci yarımfəslində aparılan tədqiqat göstərir ki, türk ədəbiyyatında postmodern fenomen adlandırılan İhsan Oqtayın "Dumanlı qitələr atlası", "Kitab-ül Hiyel", "Əfrasiyabın hekayələri", "Amat", "Susqunlar", "Yeddinci gün" və "Qatı qəhrəman" romanları ilə postmodern türk nəsrinin sosial funksiyası polifonik estetika qazanır. Azərbaycan postmodern nəsrində isə Kamal Abdullanın "Sehrbazlar dərəsi" və "Unutmağa kimsə yox" romanları sosial funksiyanın polifonik estetikasını formalaşdırır.

Dissertasiyanın giriş və üç fəslinin yekununda belə bir nəticəyə gəlmək olar ki, Türkiyə və Azərbaycan postmodernist nəsri Avropa və Amerika ədəbiyyatından sonra təşəkkül tapmışdır. Hətta inkişaf qanunauyğunluğu ilə də seçilir və fərqlənir. Türkiyə və Azərbaycan postmodernist nəsri də, öz növbəsində, bir-biri ilə oxşar və fərqli

[1] Musil Robert. Niteliksiz Adam 2. Çevirmen: Ahmet Cemal. İstanbul: Yapı Kredi Yayınları, 2015, s, 308
[2] Abdulla Kamal. Sehrbazlar dərəsi. Bakı: Mütərcim, 2006, s, 3

cəhətləri bölüşürlər. Postmodernizm geniş anlayışdır. Memarlıq, fotoqrafiya, teatr, kino, psixologiya, sosiologiya, politologiya və digər sahələrdə də öz əksini tapmışdır. Avropada ilk olaraq memarlıq sahəsində yaranan postmodernizm daha sonra incəsənət, sosiologiya, siyasət və iqtisadiyyatda təzahür etməyə başladı. Sosial-mədəni həyata müxtəlif səpkidə təsir göstərdi. Yüksək texnologiya və istehlak cəmiyyətinin ayrılmaz tərkib hissəsinə, dövrün ab-havasına çevrildi. Dissertasiyada əldə edilən nəticələri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Türkiyə və Azərbaycan nəsrində sosial funksiya probleminin ədəbi-nəzəri konsepsiyası dünya ədəbiyyatı ilə müqayisəli şəkildə ənənəvi, modernist və postmodernist aspektdə nəzərdən keçirilir. Konkret elmi qənaətlər əldə edilir;
- Türkiyə və Azərbaycan nəsrində sosial funksiyanın modernist və postmodernist konsepsiyası haqqında yığcam və konkret nəticə əldə edilir. Cozef Konrad və Ceyms Coysun əsərlərində hər nə qədər ciddi, elitar ədəbiyyata aid xüsusiyyətlər olsa da, kütləvi mədəniyyət hadisələri də mövcuddur;
- Sosial funksiyanın postmodernist ədəbi-nəzəri xüsusiyyətləri praktiki əhəmiyyət kəsb edir. Sosial funksiyanın postmodernist konsepsiyasının əsas yaradıcısı İxab Xassan "Orfeyin parçalanışı: Postmodern bir ədəbiyyata doğru" kitabında ədəbiyyatda baş verən yenilikləri və oyun estetikasının hansı zərurətdən ortaya çıxmasının səbəblərini Türkiyə və Azərbaycan ədəbiyyatında konkret nümunələrlə təhlilə cəlb edir;
- Sosial funksiyanın bədii-kommunikativ xarakter daşıması araşdırılır və əldə edilən qənaət dünya ədəbi-nəzəri fikri ilə uzlaşır. Xassan "Orfeyin parçalanışı: Postmodern bir ədəbiyyata doğru" tezisində ədəbiyyatın elastik və plastik anlayışlarla zəngin olmasını və həmçinin oyun estetikasını Orfeyin həyatı ilə müqayisə edir;
- Türkiyə və Azərbaycan nəsrində oyun estetikası Umberto Ekonun açıq mətn tezisi əsasında tədqiqat işində əhəmiyyətli yer tutur. Ekonun mətnin genişliyi, çoxsəslilik prinsipinə əsaslanan Türkiyə və Azərbaycan postmodernist nəsrinin bu nəzəri fikirləri praktikada əks etdirməsi geniş təhlil və analizlərlə

yekunlaşır;

- Türkiyə və Azərbaycan postmodern nəsrində sosial funksiya dekonstruksiya və mətnlərarası əlaqə və s. baxımından tədqiqi məsələləri əhatə edir.

Hər iki xalqın postmodernist yazıçılarının əsərləri göstərir ki, dissertasiya işi olduqca vacib və zəruri bir mövzuya həsr olunub. Mövzu haqqında konkret ədəbi və elmi nəticələr əldə etmək mümkündür.

**Dissertasiya mövzusuna aid çap olunan elmi əsərlərin siyahısı:**


1. “Fələk qırmancı” romanında postmodern elementlər və sosial funksiya. Azərbaycan Yazıçılar Birliyinin ədəbi-bədii orqanı “Azərbaycan” jurnalı. № 1, Bakı, yanvar 2017, s., 185-190.
2. Kamal Abdullanın “Yarımçıq əlyazma” romanında poststruktural funksiya. Ədəbiyyat məcmuəsi (Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri) XXIX c., Bakı, 2017, s., 196-203.
3. Türk və Azərbaycan postmodernist nəsrində sosial funksiya. AMEA Əlyazmalar İnstitutu. Filologiya məsələləri. №1, Bakı, 2017, Səh. 410-418.
4. “Küləyi dişləyən” və “İsanın qadını” romanlarında postmodern oyun estetikası. AMEA-nın Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Axtarışlar jurnalı. №2. Naxçıvan, 2010, s., 60-67.
5. A funny and postmodern in A Strangeness In My Mind and The Whıte Castle by Orhan Pamuk. Uluslararası Hakemli İletişim ve Edebiyat Araştırmaları Dergisi. sayı: 16 yıl: 2017 - ıssue: 16 year:2017 , p, 213-233.
6. Mübariz Örənin “Ağ buludlar” romanında poststruktural funksiya və kölgə arxetipi. Van Yüzüncü Yıl Üniversitesi Sosyal Araştırmalar Dergisi.Vankulu Sosyal Araştırmalar Dergisi. Cilt: 1 Sayı: 1.2018, Van, s. 27-45.
7. Social Function of Intertextual and Metatextual "Triangle of the Desire “In Oguz Atay`S "Tutunamayanlar"(“The Disconnected”) novel. Міністерство Освіти І Науки України Дніпровський Національний Університет імені Олеся Гончара. Література

в Контексті Культури, Збірник наукових праць Випуск 29. Киïв, 2019, с. 24-29.

8. Kamal Abdullanın “Yarımçıq əlyazma” romanında postmodern dekanonizasiya. Akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş “Ağamusa Axundov və Azərbaycan filologiyası” Beynəlxalq Konfransının materialları. AMEA Rəyasət heyəti və Nəsimi adına Dilçilik İnstitutunun birgə təşkilatçılığı ilə. Bakı, 24-25 aprel, 2017, s. 507-513.
9. Intertextualıty and Intercultural Dıalogue in the novel “Puslu Kıtalar Atlası” (The Atlas Of Misty Continents) by Ihsan Oktay Anar in the Context of the Social Function, Таврійський Національний Університет імені В. І. Вернадського, Вчені Записки, Випуск № 4, Серія: Філологія. Соціальні комунікації, Київ, 2019, с. 167-174.
10. Mətin Kaçanın “Ağır roman” əsərində postmodern struktur estetikası. Bakı Mühəndislik Universiteti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların II Beynəlxalq elmi konfransının materialları. Bakı, 27-28 aprel, 2018, s. 172-175.
11. Elçinin “Qatar. Pikasso. Latur. 1968” hekayəsində sənətlərarası əlaqə. Bakı Mühəndislik Universiteti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların II Beynəlxalq elmi konfransının materialları. Bakı, 27-28 aprel, 2018, s. 1159-1162.
12. Umberto Ekonun “Sıfır sayı” romanında postmodern elementlər ehtimallar estetikası kontekstində. Bakı Mühəndislik Universiteti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların II Beynəlxalq elmi konfransının materialları. Bakı, 29-30 aprel, s. 1232-1237.
13. Səbahəddin Əlinin “Xəz paltolu Madonna” romanında “üçbucaq arzu” estetikası. Bakı Mühəndislik Universiteti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların II Beynəlxalq elmi konfransının materialları. Bakı, 29-30 aprel, 2019, s. 1237-1242.

14. Orxan Pamukun “Kafamda bir tuhaflık” romanında əyləncə metodu. Qafqaz Universiteti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 92 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların III Beynəlxalq elmi konfransının materialları. Bakı, 17-18 aprel, 2015, s. 822-824.
15. Orxan Pamukun “Qırmızı saçlı qadın” romanında dekonstruksiya. Qafqaz Universiteti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların III Beynəlxalq elmi konfransının materialları. Bakı, 29-30 aprel, 2016, s. 1021-1023.
16. Alper Canıgüzün romanlarında modernist düşüncə ilə postmodernist strukturun sosial funksiyası. Bakı Mühəndislik Universiteti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 94 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların I Beynəlxalq elmi konfransının materialları. Bakı, 5-6 may, 2017, s. 675-676.
17. Modernist və postmodenist türk nəsində kütləvilik və elitarlıq. Bakı Mühəndislik Universiteti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 94 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların I Beynəlxalq elmi konfransının materialları. Bakı, 5-6 may, 2017, s. 866-868.
18. Postmodern Conception of Social Function in «Haba» («in Vain»), the Novel By Hasan Alı Toptash. Proceedings of the International Scientific Conference Security in Contemporary World Dnipro, Ukraine. September 27-28, 2019, p. 189-190.

Dissertasiyanın müdafiəsi 28 iyun 2021-ci il tarixində saat12$^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.18– Dissertasiya şurasının iclasında keçiriləcək.

**Ünvan**: Bakı-Az-1143, Bakı, Hüseyn Cavid prospekti, 115, AMEA Akademiya şəhərciyi, Əsas bina, VII mərtəbə, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elektron akt zalı.

Dissertasiya ilə AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 may 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:221.05.2021

Kağızın formatı: A5

Həcm: 46423
Tiraj: 100